AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ
TƏDRİS MƏRKƏZİ

# Azərbaycan Respublikasının və bir sıra qonşu ölkələrin iqtisadiyyata kredit qoyuluşuna dair məlumatlar

Əfəndiyev Xəlil Valeh oğlu
Elmi-tədqiqat bölməsinin baş elmi işçisi

Bakı şəhəri

# Annotasiya

Azərbaycan, Qazaxıstan və Gürcüstanda 2013-2017-ci illər ərzində ÜDM-ə nisbətdə kreditləşmə səviyyəsi qrafik təsvirlə ifadə olunmuşdur. Bundan əlavə 2017-ci ildə bu üç ölkənin hər birində iqtisadi sahələrin hər birinə ayrı-ayrılıqda qoyulan kreditlərin səviyyəsi müəyyən olunaraq müqayisə edilmişdir.

Azərbaycan, Qazaxıstan və Gürcüstanı müqayisə edərkən görünür ki, ÜDM-ə nisbətdə iqtisadiyyatı ən çox kreditləşən ölkə Gürcüstandır. Ötən son dövrlər ərzində Gürcüstan iqtisadiyyatına qoyulan kreditlərin ÜDM-ə nisbəti 43%-dən çox olub. Belə ki, 2017-ci ildə Gürcüstanda iqtisadiyyata qoyulan kreditlər ÜDM-in 58.5%-ni, Qazaxıstanda 30.5%-ni, Azərbaycanda isə 16.4%-ni təşkil edib. Diqqət olunası digər məqam ondan ibarətdir ki, digər iki ölkəylə müqayisədə, Azərbaycan iqtisadiyyatı ən az kreditləşən iqtisadiyyyat olmaqla yanaşı,həm də görünür ki, iqtisadiyyata qoyulan kreditlərin həcmi 2015-ci ildən azalmağa başlamışdır.

# Ölkələr üzrə özəl sektora ayrılmış kreditin ÜDM-ə nisbəti (%-lə)




İstinad: https://data.worldbank.org/

Bank təşkilatları özəl sektora kredit ayıran maliyyə təşkilatlarından biridir. Qrafik təsvirə əsasən demək olar ki, Azərbaycan, Gürcüstan və Qazaxıstan iqtisadiyyatına ayrılan kreditlərin ən çox hissəsi bank təşkilatlarının payına düşür. Belə ki, 2017-ci ildə Azərbaycan iqtisadiyyatına ayrılan kreditin həcmi ÜDM-in 16,4% təşkil etdiyi halda, banklar tərəfindən özəl sektora ayrılan kreditin ÜDM-ə nisbəti 16.3 % təşkil edib.

# Banklar tərəfindən özəl sektora ayrılmış kreditin ÜDM-ə nisbəti (%-lə)




| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Azərbaycan | 25.1 | 30.6 | 38.4 | 26.5 | 16.3 |
| Qazaxıstan | 34.9 | 33.5 | 34.0 | 29.6 | 27.0 |
| Gürcüstan | 39.9 | 45.3 | 49.9 | 56.8 | 58.5 |

İstinad:https://data.worldbank.org/

2015-ci ildə Azərbaycan iqtisadiyyatının ən çox kreditləşən sektoru “Ticarət və xidmət”, ən az kreditin ayrıldığı sektor isə, “Energetika,kimya və təbii ehtiyatlar” olub. Belə ki, “Ticarət və xidmət”, sektoruna ayrılan kreditin həcmi 337 milyon manat, “Energetika,kimya və təbii ehtiyyatlar” sektoruna isə 34.2 milyon manat kredit ayrılıb. Ötən dövr ərzində, 262.8 milyon manatla “Ticarət və xidmət” sahəsi ən çox kredit ayrılan sahə olduğu halda, “Energetika,kimya və təbii ehtiyyatlar” sahəsi 50.9 milyon manat olmaqla ən az kreditləşən iqtisadi sahə kimi qeydə alınmışdır.

# Azərbaycan Respublikasında sahələr üzrə ayrılmış kreditin miqdarı
# (min manatla)




İstinad: https://www.cbar.az/assets/3579/2.8.pdf

# Azərbaycan Respublikasında 2017-ci ildə sahələr üzrə kreditləşmənin paylanması



Ötən il Gürcüstan üzrə kredit göstəricilərinə nəzər saldığımız zaman görürük ki, Gürcüstan iqtisadiyyatının 2017-ci ildə ən çox kreditləşən sektoru “K.təsərrüfatı, meşə və balıqçılıq” olub. Bu sahəyə ayrılmış kreditin ölkə üzrə ümumi kreditləşmədəki payı 41%-dir. Ən az kreditləşən özəl sektor isə “Rabitə və Nəqliyyat” sektoru olub. Belə ki, ümumi kreditləşmənin cəmi 3%-i bu sektorun payına düşür.

# 2017-ci ildə Gürcüstan Respublikasında sahələr üzrə kreditləşmə




İstinad: https://www.nbg.gov.ge/index.php?m=304

“Ticarət” və “Sənaye” sahələri ümumi kreditləşmədə müvafiq olaraq 36 və 28% paya sahib olmaqla 2017-ci ildə Qazaxıstanın iqtisadiyyatında ən çox kredit ayrılan iqtisadi sahələr olmuşdur. Ötən ilin müvafiq dövrü ərzində ən az kredit ayrılan sahə-“Rabitə” sahəsinin ümümu kreditləşmədəki payı isə 2% olmuşdur.

# 2017-ci il Qazaxıstan Respublikasında sahələr üzrə kreditləşmə




İstinad: http://www.nationalbank.kz/?docid=209&switch=english

# Ədəbiyyat


- Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsi
- Dünya Bankının rəsmi internet səhifəsi
- Qazaxıstan Respublikasının Milli Bankının rəsmi internet səhifəsi
- Gürcüstan Respublikasının Milli Bankının rəsmi internet səhifəsi